DÜNYA XƏBƏRLƏRİ

Rumıniyadakı parlament seçkilərində Sosial-Demokratlar Partiyası irəlidədir

Dekabr 02, 2024



Ölkənin ikipalatalı parlamentinə seçilmək üçün 10 mindən çox namizəd qeydiyyatdan keçib.

Dekabrın 1-də Rumıniyada keçirilən parlament seçkiləri başa çatıb.

Exit-poll-un nəticələrinə görə, hakim Sosial-Demokratlar Partiyası (PSD) səslərin 26 faizini, qatı sağçı "Rumınların Birliyi uğrunda İttifaq" (AUR) 19 faizini toplayıb.

PSD-nin koalisiyadakı kiçik tərəfdaşı olan "Liberal Partiya" (PNL) və sağ mərkəzçi "Rumıniyanın Qurtuluşu uğrunda Birlik" (USR) hərəyə 15 faiz səs qazanıb.

Bir həftə öncəki prezident seçkisinin birinci turunda alınan gözlənilməz nəticələr və diasporun verdiyi səslərin exit-poll-da nəzərə alınmaması gerçək sonucların fərqli ola biləcəyinə işarə edir. Seçkilərə ikili vətəndaşlığı olan moldovalılar da qatılıblar.

Parlamentdə heç bir partiya çoxluğa nail olmasa, koalisiya hökuməti qurmaq barədə danışıqlar başlanacaq. Ən çox səs toplayan partiya, böyük ehtimalla, baş nazir postuna namizədini irəli sürəcək.

Rumınları təlaşlandıran üzünü həm Şərqə, həm də Qərbə tutan ölkənin bölünməsi, iqtisadi durumun pisləşməsi və korrupsiyanın baş alıb getməsidir.

Parlamentə düşəcək siyasi partiya ölkədəki səslərin, ən azı, 5 faizini toplamalıdır. Ölkənin ikipalatalı - 329 yerlik aşağı və 136 yerlik yuxarı parlamentinə seçilmək üçün 10 mindən çox namizəd qeydiyyatdan keçib.

Seçkilərin son nəticəsi dekabrın 2-də açıqlanacaq. Həmin gün Konstitusiya Məhkəməsi ötən həftə keçirilən prezident seçkisinin birinci turunun nəticələrini də təsdiqləyəcək.

Rusiyayönlü müstəqil namizəd **Kelin Corcesku** 23 faiz səs toplayaraq Rumıniyanın Avro-Atlantik kursunun tərəfdarı Elena Laskoni və indiki baş nazir Marçel Çiolakunu gözlənilmədən arxada qoya bilib.

Rumıniya prezidentinin milli güvənlik və xarici siyasət məsələləri də daxil, bir çox yetkisi var. O, baş nazir və hakimlik vəzifələrinə partiyaların irəli sürdüyü namizədləri rədd edə bilər.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur